# Portfolio məktəbəhazırlıq qruplarında dəyərləndirmə vasitəsi kimi



Portfolio italyanca “portfolgio” sözündən götürülmüşdür, sənədlərin saxlanılması, toplanması, daşınması üçün əl çantası və ya portfel deməkdir. Başqa sözlə ifadə etsək, konkret şəxs haqqında, həmin şəxsə aid sənədlərin toplandığı xüsusi qovluqdur. O, təhsil, ixtisas, bacarıq, təlim, təcrübə nümunələri toplusunun təqdimolunma forması, şəxsiyyət  və iş etikası haqqında fikir yaratmağın köməkçisidir. Bir növ, peşəkarlığı təmsil edən sənədlər toplusu kimi də qeyd oluna bilər. Nəticə etibarilə, portfolio hər hansı bir şəxsi görmədən, haqqında danışmadan onu təqdim etməkdir. Portfolio müxtəlif sahələrdə, müxtəlif məqsədlərlə və müxtəlif formalarda yaradılır.

Təhsil prosesində də portfoliodan geniş şəkildə istifadə olunur: o, məktəbəqədər və məktəb dövründə müəllimlərin, tərbiyəçilərin dəyərləndirmə, qiymətləndirmə aparması üçün ən yaxşı bələdçidir. Şagirdin portfoliosunda toplanan sənədlər (məsələn, şagirdin davranışı barədə məlumatlar, şagirdin təlim nailiyyətləri və inkişaf göstəriciləri, pedaqoji heyətin rəy və tövsiyələrindən ibarət sənədlər, şagirdin yazı işləri, müəllimin şagird haqqında rəyi, şagirdin sağlamlıq göstəriciləri və s.) onların inkişafını izləməyə, təlim nəticələrini qiymətləndirməyə,

refleksiyaya, şagird haqqında daim valideyni məlumatlandırmağa əhəmiyyətli dərəcədə köməklik edir.

Məktəbəhazırlıq qruplarında təhsilin keyfiyyətinin idarə olunması, inkişaf dinamikasının izlənilməsi və proqnozlaşdırılması üçün real vəziyyətin öyrənilməsində, uşaq inkişafının dəyərləndirilməsində də portfolio tərbiyəçi-müəllimlərə bələdçilik edir. Dəyərləndirmə – məlumatların təhlili və nəticələrin çıxarılması prosesidir. Onun sayəsində uşağın yüksək və aşağı səviyyədə olan bacarıqları müəyyənləşdirilir, faydalı fərdi təlim planlaşdırılır və həyata keçirilir.

“Azərbaycan Respublikasında məktəbəqədər təhsilin dövlət standartları” sənədinə əsasən uşaq inkişafının dəyərləndirilməsi təhsilalanların inkişafı və təlimi haqqında ailələri məlumatlandırmaq, inkişafetdirici təlim mühitini davamlı olaraq yeniləmək, təhsilalanların bilik, bacarıq və vərdişlərini dəyərləndirmək məqsədi ilə aparılır. İnkişafın dəyərləndirilməsi hər bir uşağa fərdi qaydada tətbiq edilir, inkişaf səviyyələrini, inkişaf ləngimələrini, böyük və kiçik motor bacarıqlarını, görmə və eşitmə ilə bağlı problemlərini müəyyənləşdirmək üçün istifadə edilir.

Dəyərləndirmə tətbiq edildiyi mərhələdən asılı olaraq *diaqnostik (ilkin) dəyərləndirmə* və *inkişafın izlənilməsi* adlı iki hissəyə bölünür. Diaqnostik dəyərləndirmə – təlimin ilkin mərhələsində uşağın bilik və bacarıq səviyyəsi haqqında məlumatı öyrənməkdir. Diaqnostik dəyərləndirmə strategiyalarda çevik dəyişikliklərin aparılması və təlimin planlaşdırılması üçün şərait yaradır, uşağın marağı, dünyagörüşü, yaşadığı mühit haqqında məlumat almağa imkan verir. Bu zaman toplanan məlumatlar uşağın inkişafının izlənilməsi və müqayisələrin aparılması üçün əlverişli şərait yaradır. Dəyərləndirmə üçün inkişafın izlənilməsi müntəzəm şəkildə, müəyyən intervallarla tərbiyəçi-müəllim tərəfindən hazırlanan meyarlara əsasən aparılır. Bunun üçün tərbiyəçi-müəllimin məqsədi aydın, müşahidələri isə fərdi, sistemli, obyektiv və dəqiq olmalıdır.

Dəyərləndirməni həyata keçirmək üçün müxtəlif metodlardan istifadə olunur. Bu metodların (müşahidə, müsahibə, şifahi sorğu və s.) tətbiqi nəticəsində toplanan sənədlər isə portfolioda saxlanılır.

"Məktəbəqədər təhsil proqramı (kurikulum)" sənədinə əsasən məktəbəhazırlıq qruplarında təhsil alan uşaqların portfoliosuna aşağıdakılar aiddir:

***1. Gündəlik qeydlər*** – tərbiyəçi-müəllimin günün sonunda uşağın fərdi və ya qrup şəklində fəaliyyəti ilə bağlı subyektiv təəssüratlarının qeydidir. Bu qeydlər gündəlik müşahidə, müsahibə, şifahi sorğu əsasında formalaşdırılır.

*Müşahidə* prosesi uşaqların fəaliyyətinə mane olmadan onları izləməyə imkan verir. Gündəlik müşahidə tərbiyəçi-müəllim tərəfindən hər gün təlim şəraitində aparılır və alınan nəticələr gündəlik qeyd olunur. Bunun sayəsində (uşağın gündəlik fəaliyyətlərə necə münasibət göstərdiyini izlədikcə) tərbiyəçi-müəllim uşağın vərdişlərə yiyələnmək səviyyəsi, temperamenti, maraqları və ümumi inkişafı haqqında məlumat toplamış olur.

*Müsahibəni* müəllim uşaqlarla söhbət şəklində qurur. Uşaq haqqında ilkin məlumat almaq üçün, uşağı ilkin dəyərləndirmək (diaqnostik qiymətləndirmə) və sonraki inkişafı izləmək üçün bu metod əhəmiyyətlidir.

*Şifahi sorğu* həm söhbət, həm də oyunla keçirilə bilər. Bu vasitə ilə tərbiyəçi-müəllimlər körpələrin müxtəlif əşyalar, hadisələr haqqında təəsüratlarını, bilik, bacarıqlarının formalaşma səviyyələrini və müxtəlif fəaliyyətlə tətbiqetmə bacarığını yoxlaya bilərlər.

Bütün bunlar gün ərzində uşaqların nailiyyət və uğursuzluqlarını izləməyə, müəyyən edilmiş məqsədlərə dair cəld və düzgün məlumat əldə etməyə kömək edir.

***2. İş nümunələri*** – uşağın tərbiyəçi-müəllim və ya valideynlər tərəfindən verilmiş xüsusi tapşırıqları (şəkil çəkmək, kəsib-yapışdırma, işarələr qoymaq,

yarımçıq işi tamamlamaq, quraşdırma, yapma, riyazi əməliyyatları yerinə yetirmək, əşyalarla oyun və s.) yerinə yetirərkən hazırladığı nümunələrdir. Portfolioda toplanılan (tarixi ardıcıllıqla) bu nümunələri müqayisə etmək il ərzində uşağın inkişaf dinamikasını izləməyə imkan verir. Məsələn, tərbiyəçi-müəllim uşağa müxtəlif vaxtlarda çəkdirdiyi şəkilləri (ağac, hərf, rəqəm və s.) müqayisə etməklə uşağın inkişafı haqqında doğru məlumat alır.

***3. Ailənin məlumatları*** – Uşaqların təlim-tərbiyə işində tərbiyəçi-müəllimlər valideynlərlə sıx əməkdaşlıq edir və bu əməkdaşlıq sayəsində uşaq haqqında daim informasiya mübadiləsi aparır. Tərbiyəçi-müəllim sorğu vasitəsilə uşaq haqqında valideynlərdən aldığı ilkin məlumatları (vərdişləri, maraqları, temperamenti, hobbisi, xüsusi istedadı, daha çox ünsiyyətdə olduğu ailə üzvü və s.) təlim fəaliyyəti zamanı istifadə edir. Onları portfolioda topladığı təsviri və ya gündəlik qeydlərlə müqayisə edərək uşağın inkişaf dinamikasını izləyir və fərdi inkişaf planı hazırlayarkən həmin məlumatlara istinad edir.

***4. İnkişaf səviyyəsi cədvəlləri*** – məktəbəhazırlıq dövründə tərbiyəçi-müəllimin uşağın inkişaf sahələri (fiziki inkişaf, sağlamlıq və təhlükəsizlik, idraki inkişaf, estetik və yaradıcı inkişaf, sosial-emosional inkişaf) üzrə səviyyəsini qeyd etdiyi cədvəldir. Bu qeydlər uşaqların davamlı inkişafı zamanı tərbiyəçi-müəllimlərin hansı cəhətə diqqət yetirməli olduqlarına kömək edir.

***5. İnkişafa dair yekun hesabat*** – tərbiyəçi-müəllim tərəfindən məktəbəhazırlıq dövrünün sonunda uşağın fərdi irəliləyişini təsvir etdiyi qeydlərdir. Bu hesabatla uşaq təhsilin növbəti pilləsinə qədəm qoyur. Uşaqların psixoloji hazırlıq və fiziki inkişaf səviyyəsini öyrənmək və onların gələcək inkişafı üçün fərdi planlaşma apararkən portfolio həmişə tərbiyəçi müəllimlərə və müəllimlərə ən yaxşı köməkçidir.

Səriştəli müəllim və təhsil menecerlərinə malik olan, qabaqcıl texnologiyalara əsaslanan təhsil sisteminin yaradılması üçün genişmiqyaslı tədbirlərdən biri təhsilalanların nailiyyətlərinin qiymətləndirilməsi üzrə yeni sistemlərin qurulması, təhsilalanların istedadının aşkar olunması və inkişafı ilə

bağlı təlim metodologiyasının yaradılmasıdır. Bu metodların seçilməsində, istifadə edilməsində isə portfolio ən yaxşı yolgöstərəndir.

**Fatma Quliyeva**

ARTİ-nin Metodik dəstək və peşəkar inkişaf mərkəzinin əməkdaşı

**İstifadə olunan mənbələr:**

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası.

2. Məktəbəhazırlıq qruplarında işləyəcək ibtidai sinif müəllimləri üçün təlim vəsaiti. Bakı, 2016

3. Azərbaycan Respublikası Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Təhsil İnstitutu, Məktəbəqədər təhsil proqramı (kurikulum), Bakı, 2022.

4.https://gunlerden.wordpress.com/2017/05/04/portfolio-haqqinda-oyr%C9%99ndikl%C9%99rim/

5. https://az.warbletoncouncil.org/portfolio-3527